# Milli Məclisdə Özbəkistan nümayəndə heyəti ilə görüş olub

Oktyabrın 27-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası Prezidenti Administrasiyası yanında İqtisadi Təhlil və İslahatlar Mərkəzinin rəhbəri Obid Hakimovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, komitə sədri qonaqları salamlayaraq onları Milli Məclisdə görməkdən məmnun olduğunu bildirib. O, oktyabrın 24-də Özbəkistanda prezident seçkilərinin uğurla keçməsi və Şavkat Mirziyoyevin yenidən dövlət başçısı seçilməsi münasibəti ilə nümayəndə heyətinə təbriklərini çatdırıb.

İki ölkə arasındakı münasibətlərdən danışan Tahir Mirkişili dövlət başçılarının yüksək səviyyəli münasibətlərinin ikitərəfli əməkdaşlığımızda mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Qlobal reytinq cədvəllərində Azərbaycanın dünyada ən islahatçı ölkə kimi tanındığını deyən komitə sədri iqtisadiyyatın inkişafı, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlı Azərbaycanda aparılan davamlı islahatlardan və bu istiqamətdə Milli Məclisin qarşısında duran çağırışlardan söz açıb.

O, Vətən müharibəsində Azərbaycanın Ermənistanın işğalına son qoyaraq əldə etdiyi Zəfərin regionda yaratdığı əməkdaşlıq imkanları barədə məlumat verib, azad edilmiş ərazilərdə görülən genişmiqyaslı quruculuq, kommunikasiyaların bərpası işlərindən bəhs edib, Özbəkistanın bu işlərdə iştirakı ilə bağlı fikirlərini səsləndirib.

Özbəkistan Respublikası Prezident Administrasiyası yanında İqtisadi Təhlil və İslahatlar Mərkəzinin direktoru Obid Hakimov təmsil etdiyi qurum haqqında məlumat verib, ölkəsinin qarşısına qoyduğu iqtisadi inkişaf hədəfləri barədə danışıb. Ölkənin islahatların ikinci mərhələsinə hazırlaşdıqlarını bildirən qonaq səfərlərinin məqsədinin Azərbaycanın iqtisadi inkişaf modelinin, əməkdaşlıq imkanlarının yaxından öyrənilməsi olduğunu qeyd edib. Görüşdə iştirak edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli, komitə üzvləri deputat Rüfət Quliyev, Elnur Allahverdiyev və Məzahir Əfəndiyev qarşılıqlı ticarət dövriyyəsinin artırılması, iqtisadiyyatın müxtəlif sahələrində, xüsusən kənd təsərrüfatında əməkdaşlıq, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən layihələrdə birgə fəaliyyət və digər məsələlər barədə fikirlərini açıqlayıblar.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2021.-28 oktyabr.- S.2.